# Azərbaycanda dini və milli dözümlülüyün çox böyük və şərəfli tarixi var

**Prezident İlham Əliyevin sədrliyi ilə keçirilən Nazirlər Kabinetinin 2015-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında dövlətimizin başçısı vurğuladı ki, Azərbaycan çoxmillətli, çoxkonfessiyalı ölkədir. Bu bizim böyük sərvətimizdir. Biz bu sərvəti qoruyuruq. Biz bunu özümüz üçün edirik.**



Azərbaycan sivilizasiyalararası dialoqların genişlənməsi üçün əlindən gələni edir. Multikulturalizmin müsbət nümunələri Azərbaycan təcrübəsində əksini tapır. Ölkəmizin sivilizasiyaların, mədəniyyətlərin və dinlərin kəsişdiyi ərazidə yerləşməsi Azərbaycanın mədəni müxtəlifliyinin zənginləşməsində də öz rolunu oynamışdır. Əsrlər boyu bütün mədəniyyətlər, dinlər və etnik qrupların nümayəndələri Azərbaycanda sülh və həmrəylik şəraitində bir ailə kimi yaşamışlar. Yəni, ölkəmizdə multikulturalizmin tarixi əsrlərlə ölçülür. Dünyanın müxtəlif bölgələrində narahatlıq doğuran ədalətsizliyin, müharibə və münaqişələrin qurbanı olan miqrantların sayının artdığı müasir dövrümüzdə multikulturalizm ənənələrinin gücləndirilməsi xüsusilə əhəmiyyətlidir. Azərbaycanda tolerantlıq kimi multikulturalizm ideyalarına sadiqlik hər zaman diqqət çəkib. Bakıda ilk təcrübə olan Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılması bu dəyərlərin təbliği istiqamətində atılan mühüm addım oldu. Xalqları sülh, sabitlik, insanları mehribanlıq, qarşılıqlı hörmət naminə birləşdirən, dinlərə qarşı süni yaradılan ekstremizmə, fobiyalara qarşı mübarizədə multikulturalizmin təbliği daha vacib və aktualdır.

Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2015-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında dövlətimizin başçısı dünyada dərinləşən iqtisadi, hərbi böhranın, münaqişələrin yaratdığı çətinliklərin vaxtilə Azərbaycanın da yaşadığını diqqətə çatdırdı. Bildirdi ki, yaranan çıxılmaz vəziyyətdən ayrı-ayrı dövlətlər kimi dinc sakinlər də əziyyət çəkirlər. "Əlbəttə, bu insanların aqibəti bizi narahat edir. Çünki biz də vaxtilə çox böyük humanitar fəlakətlə üz-üzə qalmışdıq. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində bir milyondan çox Azərbaycan vətəndaşı qaçqın, köçkün vəziyyətinə düşmüşdür. Biz yaxşı bilirik ki, bu, nə deməkdir. O vaxt Azərbaycan bu humanitar fəlakətlə təkbaşına üz-üzə qalmışdı" söyləyən Prezident İlham Əliyev bu gün Avropada köçkün, qaçqın problemini vaxtilə Azərbaycanın da yaşadığını və çətinliklərdən daxili resurslara əsaslanaraq, heç bir yardım almadan çıxdıqlarını bildirdi. O çətin anlarda da ölkəmizdə dinindən, milliyyətindən asılı olmayaraq bütün insanlar sabitliyin qorunması, iqtisadi inkişafın yüksəlməsi naminə bir araya gələrək eyni məqsəd naminə çalışdılar. "Ancaq bu gün Avropada buna miqrant böhranı deyirlər. Mən dəfələrlə demişəm ki, bu, ilk növbədə, vətənini, əmlakını, doğmalarını itirmiş insanlar üçün böhrandır. Onlar indi Avropaya sığınacaq tapmaq, canlarını qurtarmaq üçün pənah gətirirlər. Orada da onları nələr gözləyir, hamımız yaxşı görürük. Bununla bərabər, yaranmış bu vəziyyət istər-istəməz Avropada radikal qüvvələrin, islamofobiya meyillərinin güclənməsinə gətirib çıxarır. Bu da çox təhlükəli meyildir" vurğulayan dövlətimizin başçısı bildirir ki, Azərbaycan müsəlman aləminin ayrılmaz hissəsi olmaqla Avropa ölkələri ilə əməkdaşlıqda maraqlıdır, qitə dövlətləri ilə siyasi, iqtisadi, enerji, ümumiyyətlə, bütün sahələrdə uğurla əməkdaşlıq edir. Çünki dövlət siyasətimizin əsas prinsiplərindən biri millətlər, dinlərarası münasibətlərə qarşılıqlı hörmətlə yanaşmaq, etimad göstərməkdir. Ona görə də multikulturalizm dəyərlərinə birgə səylərlə nail olmaq mümkündür. Təcridolunma, ayrı-seçkilik, ksenofobiya, islamofobiya, antisemitizm kimi təhlükəli amillər sivilizasiyaların və xalqların fəlakətinə səbəb olub. Yaxın Şərqdə baş verən münaqişə və müharibələr fonunda gərginləşən müasir dünyamızda multikulturalizm dəyərlərindən danışmağa daha çox ehtiyac vardır. Azərbaycanda multikulturalizm dövlət siyasəti, həyat tərzidir. Bəzi hallarda eşidilən "Multikulturalizmin gələcəyi yoxdur" kimi səhv fikirlər mənfi fəsadlar verir. Halbuki hər bir insan multimədəniyyətli cəmiyyətlərin inkişafı naminə öz töhfəsini verməlidir.

Çoxkonfessiyalı, çoxmillətli cəmiyyət kimi formalaşan Azərbaycanda bütün xalqlar dostluq, mehribanlıq şəraitində, bir ailə kimi yaşayırlar. Heç vaxt Azərbaycanda dini, milli zəmində qarşıdurma, anlaşılmazlıq olmayıb. "Hər bir ölkənin gücünü əlbəttə ki, bir neçə amil müəyyən edir - siyasi imkanlar, iqtisadi güc və eyni zamanda, cəmiyyətdə mövcud olan ab-hava, sağlam mühit və həmrəylik duyğuları. Hesab edirəm ki, bu baxımdan Azərbaycanın təcrübəsi çox müsbətdir və biz öz işimizlə dünyada gedən proseslərə müsbət töhfəmizi veririk" söyləyən Prezident İlham Əliyevin vurğuladığı kimi, bu termin nisbətən yeni olsa da əsrlər boyu Azərbaycanda multimədəniyyətli cəmiyyətlər mövcud olub və dəyərlərə hörmətlə yanaşılıb. Multimədəniyyətli cəmiyyətlərin formalaşması, bu ideyaların təbliği hər bir məsuliyyətli siyasətçinin, ictimai xadimin, vətəndaşın fəaliyyətinin tərkib hissəsi olmalı, münaqişələrin həllinə ədalətlə yanaşılmalı, kütləvi insan ölümləri ilə nəticələnən terrora qarşı birgə mübarizədə bütün xalqlar iştirak etməlidir. Yaxın Şərqdə baş verənlər, genişlənən terror hadisələri xalqların birgəyaşayış qaydalarına sadiqliyini daha da aktuallaşdırır.

Bakıda dünyanın 33 ölkəsini təmsil edən, 200-dən artıq yüksək səviyyəli nümayəndənin iştirakı ilə keçirilən "Qloballaşma, din, ənənəvi dəyərlər" adlı sammitdə deyildi ki, Azərbaycanda dini və milli dözümlülüyün çox böyük və şərəfli tarixi var.

Dünya ictimaiyyəti üçün aydın olan həqiqət budur ki, Azərbaycanın dinlərarası dialoqun mərkəzinə çevrilməsi prosesi bu gün də uğurla davam etdirilir. Milliyyətindən, dinindən asılı olmayaraq bütün Azərbaycan vətəndaşları ölkə iqtisadiyyatının güclənməsində iştirak edir. Çoxmillətli, çoxkonfessiyalı ölkə olan Azərbaycanda milli dəyərlərə sadiqlik, ümumbəşəri dəyərlərə hörmət meyilləri respublikanın müasirləşməsinə, modernləşməsinə xidmət göstərir.

Dövlətimizin başçısının Sərəncamı ilə 2016-cı ilin Azərbaycanda "Multikulturalizm ili" elan olunması xalqımızın bəşəri, insani dəyərlərə verdiyi qiymətdir. "Bu il Bakıda mötəbər beynəlxalq tədbir - Sivilizasiyalar Alyansının Qlobal Forumu keçiriləcək. Bu, dünya miqyasında çox böyük beynəlxalq tədbirdir. BMT-nin fəal iştirakı, dəstəyi ilə keçirilən tədbirlərdir. Mən çox şadam ki, növbəti Qlobal Forum Azərbaycanda keçiriləcək. Bu, Azərbaycanda həmin istiqamətdə görülən işlərə BMT tərəfindən verilən böyük qiymətdir. Bilirsiniz ki, Bakıda ənənəvi Humanitar forumlar keçirilir. Mədəniyyətlərarası Dialoq forumları bir neçə dəfə keçirilmişdir. Sivilizasiyalar Alyansının Qlobal Forumunun Bakıda keçirilməsi doğrudan da həm bizə verilən böyük qiymətdir, həm də ki bizim üçün böyük şərəfdir" söyləyən dövlətimizin başçısı vurğulayır ki, çox istərdik ki, başqa ölkələr də bizim təcrübəmizdən istifadə etsinlər. Çünki dinlərarası münaqişə fəlakətə gətirib çıxarır. Müxtəlif dinlərin, millətlərin nümayəndələri bir yerdə, normal qardaşlıq, dostluq şəraitində yaşaya bilərlər, necə ki, Azərbaycanda yaşayırlar. Bunun üçün regionda və dünyada dinlərarası, sivilizasiyalararası dialoq daha da dərinləşməlidir.

Bir çox sahələr kimi multikulturalizm və cəmiyyətdə dəyər konsensusu, qloballaşan informasiya məkanında medianın aktuallığı, humanitar problemlər ətrafında müzakirələr aparılır, təcrübələr öyrənilir. Dünya ictimaiyyətində belə bir fikir formalaşıb ki, Azərbaycanda yaranan tolerantlıq, dini dözümlülüyün təbliği sülhə, sabitliyə nail olmaq üçün ən təsirli vasitədir.

Ötən il I Avropa Oyunlarına ev sahibliyi edən Azərbaycan bu il "Formula-1" idman yarışının, 2017-ci ildə isə İslam Həmrəylik Oyunlarının keçiriləcəyi məkan kimi dünya birliyinin diqqətini cəlb edəcək. Dünyada terrorizmin, ekstremizmin, separatizmin genişləndiyi indiki dövrdə mədəniyyətlərarası münasibətlərin inkişafına təkan verəcək multikulturalizmin əhəmiyyətinin dəyərləndirilməsi baxımından da belə tədbirlərin keçirilməsi vacibdir. "Qloballaşma" məfhumu altında həyatımıza daxil olan bir sıra problemlər əslində dövlət, din və elm xadimlərindən vahid ideya ətrafında birləşməyi tələb edir. Dinlər, təriqətlər, konfessiyalararası dialoqun gücləndirilməsi, dünya xalqlarının tolerantlıq və qarşılıqlı hörmət ruhunda tərbiyə edilməsi hər bir insanın başlıca vəzifəsi olmalıdır.

**Xuraman İsmayılqızı,**
***"İki sahil"***